# DİLÇİLİK

## Ə.ƏYLİSLİNİN ÜSLUBU HAQQINDA

**E.İ.ƏZİZOV**
***Bakı Dövlət Universiteti***

Ə.Əylisli müasir Azərbaycan ədəbiyyatında öz yerini tutmuş, öz üslubunu müəyyənləşdirmiş görkəmli bir yazıçıdır. Özünəməxsus mövzuları və yazı tərzi olan Ə.Əylisli sovet ideologiyasının hökmran olduğu bir dövrdə sovet ədəbiyyatının içində yaranmış yeni nəsri uğurla inkişaf etdirən, insanın daxili, mənəvi aləmini gerçək şəkildə təsvir edən bir sənətkardır. O, bədii təfərrüat ustasıdır. Dərin müşahidə qabiliyyətinə malik olan yazıçının əsərlərində hadisəçilik yox, bədii detalı bütün dəqiqliyi və aydınlığı ilə vermək meyli üstündür.

İnsan qəlbinə çox yaxın olan təbii lirizm və eyni zamanda sərt realizm Ə.Əylisli yaradıcılığının əsas məziyyətlərindəndir. Onun əsərlərində elə bir söz, elə bir ifadə, elə bir cümlə tapmaq çətindir ki, yazıçı onu öz qəlbindən keçirməmiş olsun. Yaradıcılığındakı bu keyfiyyəti Ə.Əylisli özü müsahibələrinin birində qeyd etmişdir. O, 2005-ci ildə «Xəzər» jurnalına vediyi müsahibədə öz tərcümələrindən danışarkən göstərir ki, «tərcümə elədiyim bu əsərlərin hər sözündə ürəyimin qıpqırmızı qan ləkəsi var».

Bu sözlər yazıçının əsərləri üzərində necə bir daxili gərginliklə işlədiyini göstərir. Öz tərcümə əsəri üzərində ürəyinin qan ləkəsini görən sənətkar, yəqin ki, orijinal əsərində, necə deyərlər, qanın özünü görür. Ədəbiyyat tariximizdə bu cür etirafa mən Füzulidə rast gəlmişəm. Füzuli farsca «Divan»ının dibaçəsində yazmışdır: «Elə vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam...» (1, s. 20).

Ə.Əylisli bələd olduğu mövzudan yazır, tanıdığı, bildiyi insanları təsvir edir. Onun əsərlərində insanların mənəvi-psixoloji durumunun təsviri əsas yer tutur. «Güllü paltar mövsümü» povestində yazıçının əsas məqsədi heç də bir zamanlar Bakıda dəbdə olmuş güllü paltarları, bu paltarları geymiş qızları təsvir etmək deyil. Burada güllü paltar, daha doğrusu, paltarın üzərindəki çiçək əsas mətləbə keçmək üçün bir növ vasitə rolunu oynayır (C.Məmmədquluzadə üslubunu xatırladır). Ali məktəbdə qəbul imtahanı götürən Canəli müəllimin diqqətini imtahana gəlmiş qızın paltarındakı çiçək – gülül çiçəyi cəlb edir. Bu çiçək Canəli müəllimə uşaqlıq illərindəki acınacaqlı bir hadisəni xatırladır. Kolxoz sədri toxumluq taxıl zəmisindəki gülül çiçəklərinin çoxluğundan bərk əsəbiləşib anbardarı söydüyü bir vaxtda ehtiyac üzündən təzə-təzə dən tutan sünbüllərdən torbaya yığan uşaqla – Canəli ilə rastlaşır. Gözlənildiyinin əksinə olaraq, kolxoz sədri uşağın bu hərəkətinə göz yumur, onu

cəzalandırmadan çıxıb gedir, ertəsi gün isə anbarda ehtiyat üçün saxlanılmış taxılı siyahı üzrə əsgər ailələrinə böldürür.

Təsvirlərində mətləblə əlaqədar olan ən xırda detalları da kənarda qoymayan Ə.Əylisli sünbül yığarkən sədr tərəfindən yaxalanan uşağın keçirdiyi qorxu hissinin sadəcə təsviri ilə kifayətlənmir, eyni zamanda bu hissin ani olmadığını, onun dərinliyini, uzun müddət davam etdiyini də nəzərə çarpdırır: «Canəli kolxoz sədrinin o söhbəti salacağından qorxurdu. Qorxudan Canəlinin ürəyinin tappıltısı bütün kəndi ağzına götürmüşdü... Amma sədr o barədə Canəliyə nə o gün, nə də başqa bir vaxt bir kəlmə də söz demədi. Sanki belə şey olmamışdı. Sanki belə şey ola bilməzdi... Əli oğlu Səməndər olaydı kolxozun taxıl zəmisində günün günorta çağı sünbül oğrusu tutaydı, özü də nə döyəydi, nə söyəydi – eləcə dinməz-söyləməz qanrılıb çıxıb gedəydi. Yox, belə şey, doğrudan da, mümkün olan şey deyildi» (2).

Yazıçı bu acı xatirə ilə güllü paltarlı qızın imtahan verməsi səhnəsini qarşılaşdırır. Canəli müəllim seçim qarşısında qalır. O, biletin heç bir sualına cavab verə bilməyən bu qıza ya «iki» yazmalı, ya da orta məktəbdə bir sinifdə oxuduğu Fətdahın məkrli təklifi ilə razılaşıb «beş» yazmalıdır. Abituriyent qızın dünyanı bir fındıq hesab etməsi də onun mənəviyyatsızlığını bütün çılpaqlığı ilə üzə çıxarır: «Papam deyir ki, bu dünya bir fındıqdı. Mamam deyir ki... Oy yadımdan çıxdı! Mamam interesni deyir».

Özünə xəyanət etməyən və müəllim adını uca tutan Canəli müəllim ali məktəbə əyri yolla daxil olmaq istəyən qızın imtahan vərəqəsinə «iki» yazır, bununla da dünyanı fındıq hesab edənlərin və Fətdah kimi fırıldaqçıların cavabını verir: «Yox, kəsmək lazımdı bütün bu fətdahların toxumunu. Silmək lazımdı yer üzündən bunların nəsli-nəcabətini».

Ə.Əylisli Azərbaycan dilinin incəliklərini bilən və ondan məharətlə istifadə edən bir sənətkardır. Prof. Tofiq Hacıyev «Əslində Ə.Əylisli sənətinin əfsunu, bədii enerjisi dilindədir» deyə yazmaqda çox haqlıdır (3, s.225). Ə.Əylisli sözü yerində işlətməklə güclü bədii effekt yarada bilir. «Ürək yaman şeydir» hekayəsində ilk baxışda diqqəti cəlb etməyən və çox adi görünən bir cümləyə diqqət edək: «Dağlarda ayrı vaxt adam boyunca qalxan ot-ələf son çöpünəcən biçilib-daşınmışdı».

Buradakı «son çöpünəcən» ifadəsi əsərdə təsvirinə ayrıca yer verilməyən ot biçən adamların işgüzarlığı barədə müəyyən təsəvvür yaradır. Yazıçı həmin cümlədə «son çöpünəcən» ifadəsini işlətməyə də bilərdi, lakin bu halda otu biçib daşımış adamların işi çox adi görünərdi.

«Kür qırağının meşələri»ndə Qədirin bankanı və parçı pəncərənin qarşısındakı çırağın yanına qoyması ən xırda detallarına qədər təsvir edilir. Kiçik bir təsvirdə oxucu Qədirin bankanı və parçı iyləməsini də, onları ağzı üstə çevirməsini də, pəncərənin qarşısındakı çırağın hisli olmasını da görür: «...gözünü bankaya, bir də parça zilləyib, bir müddət key-key baxdı, sonra onları götürdü, bankanı da, parçı da iylədi, aparıb ağzı üstə çevirib pəncərənin çıxarındakı hisli çırağın yanına qoydu».

Ə.Əylisli insanları birtərəfli təsvir etmir, onları bütün yönlərdən işıqlandırmağı bacarır. «Ürək yaman şeydir» hekayəsində dövlət pulunu mənimsəyib gizli həyat keçirən, hətta qonşusunun da toyuqlarını oğurlayan Əjdər eyni zamanda aya inanan bir insan kimi verilir.

«- Gedib satmazsan ki?

- Yox, ə... Nə danışırsan, heç kəsə demərəm!..

- And iç!

- Nəyə and içim?

Sərvər çox fikirləşdi, ancaq and içməyə bir şey tapmadı. Əjdər göydəki ayı göstərib:

- Ona inanırsanmı? – dedi.

Sərvər başını qaldırıb aya baxdı. O gecəki ay isə elə böyük idi, elə qəribə idi ki, o aya inanmamaq doğrudan da mümkün olan şey deyildi... Buna görə də Sərvər lap ürəkdən:

- İnanıram! – dedi.

- And iç.

- O Ay haqqı, heç kəsə deməərəm!»

Xalq arasında ayın müqəddəs hesab olunmasını, onun haqqında müxtəlif rəvayətlərin mövcudluğunu, bəzi adamların təzə ayı görərkən salavat çevirməsini nəzərə aldıqda Buzbulaq kəndindən çıxmış Əjdərin və altıncı sinif şagirdi Sərvərin Aya inanmaları təbii görünür.

Ə.Əylislinin hekayəsindəki epizodik Ay obrazı istər-istəməz Ə.Haqverdiyevin «Ayın şahidliyi» hekayəsindəki ay obrazını yada salır. Həmin hekayədə insanın nahaq ölümqabağı ayı şahidliyə çağırması böyük sənətkarlıqla yaradılmış unudulmaz bir səhnədir.

Fikrimcə, Ə.Əylisli yaradıcılığının bədii qüdrəti obrazlarının və bədii dilinin xalqın milli-etnik düşüncəsini doğru-düzgün əks etdirməsindədir.

Ə.Əylisli nəsrində nağıl, dastan dilinə məxsus elementlərə də təsadüf olunur ki, bu da bədii dilə xüsusi gözəllik verir: Hələlik yuxu yuxuluğunda, Əjdər Əjdərliyində qalsın, əsas mətləb burasındadır ki, səhərisi yataqdan duranda Sərvər özlüyündə qışın məsələsini tamam həll eləyib qurtarmışdı. («Ürək yaman şeydir»); Günlərin bir günü Qəmər arvadı aparıb basdırdılar («Bir misranın yuxusu»); Az durdular, çox durdular, nəhayət, Qədir dillənə bildi; Az keçdi, çox keçdi, yenə dünyanın işığı dünyaya qayıtdı («Kür qırağının meşələri»).

Folklor nümunələrində olduğu kimi, Ə.Əylislinin də əsərlərində mübaliğələrin ən şiddətli formasına rast gəlirik: *Kök atıb, milyon kilometrlərlə yerin dibinə getmiş ağaclar; Bu meşədə hər kolun min gözü vardı, bu zülmətdə milyon-milyon qorxunc gözlər işanrdı, otların sayı qədər, yarpaqların sayı qədər...* («Kür qırağının meşələri»).

Ə.Əylisli yaradıcılığında aydın görünən folklorizmi yazıçının öz sözləri də təsdiq edir: «Adamlar və ağaclar»dakı az-çox uğurlu səhifələrin dili də, ruhu da, hətta mövzusu da haradasa bizim nağıllardan, laylalardan, bayatılardan, dastanlardan gəlir» (4, s. 65).

Ə.Əylislinin əsərlərini təhlil edən tədqiqatçılar yazıçının dilə, sözə həssas münasibətini əsas götürərək onu «nəsrimizin şairi» adlandırmışlar (5, s. 529). Fikrin obrazlı ifadəsi onun yaradıcılığında çox güclüdür. Nümunələrə diqqət edək.

Uşağın keçirdiyi qorxu hissinin dərinliyi: «Qorxudan Canəlinin ürəyinin tıppıltısı bütün kəndi ağzına götürmüşdü» («Güllü paltar mövsümü»).

Gecənin zil qaranlıq olması: «Ay batmışdı və bayır elə qaranlıq idi ki, elə bil dünyanın işığı bir də dünyaya qayıtmayacaqdı» («Kür qırağının meşələri»).

Səhərin açılması: «Az keçdi, çox keçdi, yenə dünyanın işığı dünyaya qayıtdı» («Kür qırağının meşələri»).

Ə.Əylisli lüzumsuz söz işlətməyi sevmir. Onun təsvirlərində hər bir söz müəyyən məqsədlə işlədilir və müəyyən bədii yük daşıyır. Yazıçının bəzi məqamlarda mətləbi ən az sözlə, qısa və aydın şəkildə vermək istəyi nəticə olaraq adlıq cümlələrin işlənməsinə gətirib çıxarır. «Kür qırağının meşələri» povestində adlıq cümlələrdən bir neçə dəfə istifadə olunmuşdur: *Üstü kirəmitli damlar; Damlar. Kök atıb, milyon kilometrlərlə yerin dibinə getmiş ağaclar; Sübh tezdən. Meşə yolu.*

Bəzi söz və ifadələrin təkrar-təkrar işlədilməsi Ə.Əylislinin üslubuna xas olan bir cəhətdir. Bu cür söz və ifadələr lüzumsuz təkrarlar deyil, fikri qüvvətləndirən, bəzi məqamlarda isə obrazın psixoloji vəziyyətinin aydınlaşdırılmasına kömək edən bir vasitədir: *Eyni vaxtda* mətbəxdə Canəli müəllimin bu səhər bazardan aldığı toyuq bişirdi. *Eyni vaxtda* vanna otağında boruların içi ilə şırhaşır su axırdı; *Eyni vaxtda* Canəli müəllimin xəyalı Buzbulağın arxlarını dolanırdı. *Eyni vaxtda* mətbəxdə, onun bu səhər bazardan aldığı toyuq bişirdi; ...çünki bu sözü Canəli müəllim yalnız Buzbulaqda eşitmişdi, özü də yalnız *o vaxtlar* eşitmişdi: *o vaxtlar ki,* Buzbulaq kolxozunun sədri Əli oğlu Səməndər idi. *O vaxtlar* ki, Fətinin dədəsi Kərim kolxozun anbardarı idi («Güllü paltar mövsümü»); Sonrası öz işindir, istərsən qalaram, istəməzsən – çıxıb rədd olub *gedərəm... Gedərəm,* Səltənət, *gedərəm, gedərəm, gedərəm*; Bir də fərq orasında idi ki, gəzinə-gəzinə Qədir indi başqa bir sözü təkrar eləyirdi: «*Altı il, altı il, altı il...*» («Kür qırağının meşələri»).

Ə.Əylisli məhdud ərazidə işlənən sözlərə – dialekt sözlərinə ehtiyatla yanaşır, onlardan istifadə zərurəti yarananda həmin sözləri mətn daxilində anlaşıqlı bir şəkildə işlədir. «Güllü paltar mövsümü»ndə *gülül* sözünün ifadə etdiyi anlayış («taxıl zəmisində bitən çiçək») tam aydınlaşır. Yazıçı ədəbi dildə *gülül* sözünün işlənmədiyini nəzərə alıb gülül çiçəyi haqqında xeyli danışır, onun zəmidə bitdiyini, çiçəklərinin qırmızı rəngdə olduğunu, toxumunun mərciyə oxşadığını, taxıl biçilərkən toxumunun buğdaya qarışıb çörəyin dadını dəyişdirdiyini bütün təfərrüatı ilə oxucuya çatdırır. Yenə həmin əsərdə bir neçə dəfə işlədilmiş dialektə məxsus *kərdi* sözünün də mənası mətndə anlaşılır: Mahrux arvadın özü isə yəqin ki, *kərdinin* qırağında əyləşmişdi: reyhandan, soğandan, vəzəridən bir-bir qoparıb çarğatının ucuna yığırdı.

*Kərdi* sözü Azərbaycan dilinin Ordubad, Culfa, Şərur, Zəngilan, Tərtər, Qazax, Borçalı və s. şivələrində «lək» mənasını bildirir.

Ə.Əylislinin nəzərdən keçirilən əsərlərinin məzmun və bədii dil xüsusiyyətlərindən çıxış edərək, bütünlükdə onun yaradıcılığını sənətdə xəlqiliyin parlaq nümunəsi kimi qiymətləndirmək olar.

**QEYDLƏR**

1. Füzuli M. Əsərləri. III c. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1958.
2. Ə.Əylislinin əsərlərindən nümunələr bu nəşr üzrə verilir: Əylisli Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004.
3. Hacıyev T. Şeirimiz, nəsrimiz, ədəbi dilimiz. Bakı: Yazıçı, 1990.
4. Əylisli Ə. Ədəbiyyat yanğısı (məqalələr, çıxışlar, ədəbi qeydlər). Bakı: Yazıçı, 1989.
5. Müasir Azərbaycan ədəbiyyatı. II c. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.

## О СТИЛЕ А.АЙЛИСЛИ

Э.И.АЗИЗОВ

РЕЗЮМЕ

В статье рассматриваются характерные особенности стиля выдающегося представителя современной азербайджанской прозы А.Айлисли: подробное описание, образное выражение мысли, повторы, элементы фольклоризма и диалектизмы.

## ABOUT THE STYLE OF A.AILISLI

E.I.AZIZOV

SUMMARY

In this article are examined the peculiarities of the style of the outstanding representative of the modern Azerbaijanian prose by A.Ailisli: detailted description, figure of speech, re-iteration, elements or folklorism and dialect words.